# AZƏRBAYCANIN POST-KONFLİKT ƏRAZİLƏRİNDƏ “YAŞIL ENERJİ” SEKTORU ÜÇÜN XARİCİ İNVESTİSİYA MƏNBƏLƏRİ

**Cavanşir Burhanzadə**

*AR ETN İqtisadiyyat İnstitutu, Bakı*
*cavanshirburhanzadeh@gmail.com*

Son illərdə sənayenin və texnologiyanın inkişafı ilə ətraf mühitə dəyən zərər bir sıra beynəlxalq qurumları, o cümlədən dövlətləri narahat edən əsas problemlərdən biri hesab olunur. Bu problemin həlli istiqamətində mütəxəssislər tərəfindən bir sıra təkliflər irəli sürülmüşdür. Tullantısız texnologiyaya keçid, bərpa olunan enerji mənbələrindən istifadəbu qəbildən olan təkliflərdir. “Bərpa olunan enerji” bəzi hallarda

“yaşıl enerji” kimi qələmə verilir. Lakin bu iki anlayışı bir-birindən fərqləndirmək lazımdır. “Bərpa olunan enerji”anlayışı daha geniş məfhum olub, “yaşıl enerji”ni də özündə ehtiva edir. “Yaşıl enerji” tükənməyən və ya bərpa oluna bilən mənbədən istismar edilən və ətraf mühitə zərər verməyən istehsal üsuluna malik olan enerjidir. Bura yağış, külək və günəş enerjisini aid edə bilərik. Beynəlxalq Enerji Agentliyinin verdiyi məlumata əsasən, 2028-ci ildə bərpa olunan enerji mənbələri üzrə elektrik enerjisi istehsalı bütün dünya üzrə ümumi elektrik enerjisi istehsalının 42%-ni təşkil edəcək (Qrafik 1). Həmçinin agentliyin proqnozlarına görə,“yaşıl enerji”nin payı ümumi elektrik enerjisində 39%-dək artacaqdır [4].

**Qrafik 1. Bərpa olunan elektrik enerjisi istehsalının payı, 2000-2028**




**Mənbə:** Beynəlxalq Enerji Agentliyi (International Energy Agency), URL:https://www.iea.org/energy-system/renewables

Bildiyimiz kimi, uzun tarixi dövr ərzində ölkəmizin enerjiyə olan tələbatını bərpa olunmayan enerji mənbələri (ənənəvi enerji resursları) ödəmişdir. Lakin günümüzün tələblərini nəzərə alaraq respublikamız bütün sahələrdə olduğu kimi, energetika sahəsində də qabaqcıl metod və vasitələrin köməyi ilə “yaşıl enerji”yə keçid etməkdədir. Qeyd etməliyik ki, Azərbaycan çox böyük “yaşıl enerji” potensialına malikdir. Bu potensialın əhəmiyyətli bir hissəsi respublikamızın post-konflikt ərazilərinin payına düşür. Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyinin məlumatlarına əsasən, Şərqi Zəngəzur iqtisadi rayonunda və Füzuli rayonunda 7200 MVt-dan artıq günəş enerjisi potensialı mövcuddur. Habelə Şərqi Zəngəzur iqtisadi rayonunun dağlıq və dağətəyi ərazilərində külək enerjisinin potensialı 2000 MVt həcmində qiymətləndirilmişdir [1]. Ölkəmizin su ehtiyatlarının dörddə birinin post-konflikt ərazilərimizdə formalaşması bu regionun böyük hidroenerji imkanlarına malik olduğunu deməyə əsas verir. Qarabağın və Şərqi Zəngəzurun bu imkanlarını qiymətləndirərək əminliklə deyə bilərik ki, yaxın gələcəkdə post-konflikt ərazilərimiz “yaşıl enerji cənnətinə” çevriləcəkdir. Artıq dövlətimiz bu istiqamətdə əməli addımlar atmışdır. Laçın rayonunda “Güləbird” SES (Su Elektrik Stansiyası) və Tərtərdə “Suqovuşan-1” və “Suqovuşan-2” KSES, Kəlbəcərdə “Kəlbəcər-1” KSES açılışı, habelə Qarabağ və Şərqi Zəngəzurun 11 ərazi vahidində olan SES-lərin yenidənqurulması və bərpası hidroenerji ehtiyatlarımızdan səmərəli istifadəni şərtləndirəcəkdir. Heç şübhəsiz ki, bütün bu işlərin görülməsi böyük maliyyə vəsaitləri tələb edir. Bu baxımdan, xarici investisiyaların post-konflikt ərazilərimizin “yaşıl enerji” sektoruna cəlb edilməsi mühüm əhəmiyyət kəsb edir. Bu sahədə də artıq bir sıra işlər görülməkdədir. Azərbaycan Respublikası Energetika Nazirliyi “Masdar” (BƏƏ) – külək enerjisi; “BP” (Böyük Britaniya), “ACWA Power” (Səudiyyə Ərəbistanı) – günəş enerjisi; “Tepsco” (Yaponiya); “Fortescue Future Industries” (Avstraliya); “Maire Tecnimont” (İtaliya); “China Gezhouba Group Overseas Investment” (Çin), “Total Energies” (Fransa) şirkətləri ilə müvafiq icra müqavilələri imzalamışdır [2]. Lakin bütün bunlar Qarabağı və Şərqi Zəngəzuru “Yaşıl Enerji Zonası”na çevirmək üçün kifayət etmir. “Yaşıl energetika” sahəsində dünyanın qabaqcıl müəssisələrini post-konflikt ərazilərimizə cəlb etmək bu problemin həllində əvəzsiz rol oynayacaqdır. Azərbaycanın post-konflikt ərazilərinin “yaşıl enerji” sektoru üçün xarici investisiya mənbələrini 3 regional qrupda dəyərləndirə bilərik. Birinci region ABŞ və Kanada müəssisələrinin daxil olduğu Şimali Amerika regionudur. Bura dünyanın ən böyük bərpa olunan enerji şirkəti “General Electric” (ABŞ), ABŞ-ın ən böyük karbonsuz enerji istehsalçısı olan “Constellation Energy”, dünyanın ən böyük külək və günəş enerjisi istehsalçısı olan “NextEra Energy” (ABŞ), Kanadanın ən böyük günəş enerjisi istehsalçısı olan “Canadian Solar” və əsas fəaliyyət istiqaməti hidroenerji mənbələrinə yönələn “Brookfield Renewable” (Kanada) müəssisələri daxildir. İkinci region

Avropa regionudur ki, bura İspaniyanın hidroenerji, günəş və külək enerjisi istehsalı üzrə ixtisaslaşmış, dünyanın ən böyük ikinci bərpa olunan enerji istehsalçısı olan "Iberdrola" şirkəti və Danimarkanın külək enerjisi istehsalçısı olan "Vestas Wind Systems" şirkəti daxildir. Üçüncü region Uzaq Şərq regionudur ki, burada sadalayacağımız müəssisələr Çin Xalq Respublikasına məxsusdur. Əsas fəaliyyəti günəş modulları və batareyaları istehsal etmək olan "Jinko Solar Holding" və "Daqo New Energy" Uzaq Şərqin ən iri "yaşıl enerji" istehsal edən korporasiyalarıdır. Sadaladığımız müəssisələr post-konflikt ərazilərimizə investisiya qoyduqları təqdirdə Qarabağın və Şərqi Zəngəzurun "yaşıl enerji" potensialından maksimum şəkildə yararlana bilərik. Xüsusilə qeyd etməliyik ki, əməkdaşlıq etdiyimiz "ACWA Power" (Səudiyyə Ərəbistanı) və "Masdar" (BƏƏ) şirkətlərinin "General Electric" (ABŞ) korporasiyası ilə geniş iqtisadi əlaqələri mövcuddur [3]. Həmçinin "BP"nin "Vestas Wind Systems" (Danimarka) şirkəti ilə birgə həyata keçirdiyi külək enerjisi layihələri mövcuddur [5]. Bütün bunlar onu deməyə əsas verir ki, "yaşıl energetika" sahəsində xarici investisiyaların post-konflikt ərazilərimizə cəlb edilməsi üçün təsir rıçaqlarımız vardır. Heç şübhəsiz ki, investisiya cəlbediciliyində fiskal və monetar makroiqtisadi rıçaqlarla yanaşı, beynəlxalq əlaqələr də müstəsna rol oynayır. Əməkdaşlıq etdiyimiz müəssisələrin yardımı ilə geniş təcrübəyə malik olan nəhəng "yaşıl enerji" korporasiyalarını post-konflikt ərazilərimizə cəlb edə bilərik.

**İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT**


1. İşğaldan azad edilmiş ərazilərdə Yaşıl Enerji Zonası: [Elektron resurs] / Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət AgentliyiURL: https://area.gov.az/az/page/layiheler/yasil-enerji-zonasi/yasil

2. Səlimov, V. "Yaşıl enerji" qlobal problemlərin həllinə "yaşıl işıq" yandırır // Xalq. – 2024, 2 aprel. – s. 8.

3. GE Power and NOMAC Sign Digital Deal to Enhance Performance at 26 Power Generation and Desalination Sites Globally: [Electronic resource] / General Electric CompanyURL: https://www.ge.com/news/press-releases/ge-power-and-nomac-sign-digital-deal-enhance-performance-26-power-generation-and

4. The global power mix will be transformed by 2028: [Electronic resource] / International Energy Agency (IEA) URL: https://www.iea.org/energy-system/renewables

5. Vestas selected as preferred supplier for the 2.1 GW Empire Wind 1 and Empire Wind 2 offshore wind projects in the USA: [Electronic resource] / Vestas Wind Systems URL: https://www.vestas.com/en/media/company-news/2021/vestas-selected-as-preferred-supplier-for-the-2-1-gw-em-c3434433